Azərbaycan.- 2021.- 2 oktyabr. S. 5.

# Tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində aparılan işlər və qarşıda duran vəzifələr müzakirə olunub



## Bu il 37 mindən çox şəxsə əlillik təyinatı aparılıb, əlilliyi olan şəxslərə 35 mindən çox reabilitasiya vasitəsi verilib

Əlilliyin qiymətləndirilməsinin rəqəmsal infrastrukturu təkmilləşdirildikcə, funksional imkanları, inteqrasiya dairəsi genişləndikcə tibbi-sosial ekspertizanın operativliyi və daha şəffaf həyata keçirilməsi, müraciətlərə obyektiv, çevik baxılması da təmin olunur.

Bu məqsədlə "Əlillik" altsistemində son aylarda 20-dən çox təkmilləşdirmə işi aparılıb, həmçinin "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi tətbiq edilib.

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tibbi-sosial ekspertiza və reabilitasiya sahəsində aparılan işlər və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında bildirilib.

Prezident İlham Əliyevin tapşırığına əsasən, sosial sahədə aparılan genişmiqyaslı islahatların əliliyin qiymətləndirilməsi və reabilitasiya sahəsini də əhatə etdiyi vurğulanıb. Bildirilib ki, əsas hədəf əlilliyin şəffaf şəkildə təyinatı, əsassız əlillik təyinatlarının qarşısının alınmasıdır. Əlillik və sosial ödənişlərin təyinatının buna haqqı çatan şəxslərə şamil olunması, sosial ədalət prinsipinə uyğun yanaşmanın əlillik sahəsində tam təmin edilməsidir.

Bu il artıq 37 mindən çox şəxsə əlillik təyinatı aparılıb, onlardan 12 mindən çoxuna ilkin, qalan hissəsinə təkrar əlillik təyin olunub. Eyni zamanda Vətən müharibəsi qazilərinin əlilliyinin qiymətləndirilməsi xüsusi diqqətdə saxlanır. Aidiyyəti qurumlarla, o cümlədən Müdafiə Nazirliyi ilə bu sahədə koordinasiya olunmuş şəkildə ardıcıl işlər aparılır. "Hərbi-həkim ekspertizası və tibbi şəhadətləndirilmə" altsistemi də bu istiqamətdə öz töhfəsini verir. Artıq 2 minədək qaziyə əlillik və sosial ödənişlər təyin olunub, proses davam edir.

İclasda nazirliyin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin sədri Anar Bayramov agentliyin gördüyü işlər və qurumun planlarına dair təqdimatla çıxış edib. Həmçinin agentlikdə sənədlər və vətəndaş müraciətləri ilə iş, "Əlillik" və "Reabilitasiya" altsistemlərinin funksional imkanlarının artırılması üçün aparılan işlər, reabilitasiya müəssisələrinin, Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin fəaliyyəti barədə təqdimatlar edilib. Vətəndaşların reabilitasiya mərkəzlərinə qəbulu üçün qeydiyyatın "onlayn müstəviyə keçirildiyi, vahid reabilitasiya informasiya idarəetmə sisteminin yaradılmasının nəzərdə tutulduğu, bu il reabilitasiya mərkəzlərində 5 mindən çox şəxsə xidmət göstərildiyi, əlilliyi olan şəxslərə 35 mindən çox reabilitasiya vasitəsi verildiyi, qazilərin yüksək texnologiyalı protezlə təminatı işlərinin davam etdirildiyi qeyd edilib.